*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2026*
*Səh. 473-479*

https://doi.org/10.62837/2026.4.473

**HƏSƏNOVA PƏRVIN XALƏDDIN QIZI**
prvinhsnova4@gmail.com
**Azərbaycan Dillər Universiteti**

# UILYAM QIBSON KIBERPANK JANRININ BANISI KIMI

**Xülasə**

Məqalədə kiberpank anlayışı və müasir Amerika yazıçısı eyni zamanda elmi-fantastika janrının görkəmli nümayəndəsi Uilyam Qibsonun "Kiberməkan" trilogiyası və bu anlayışın trilogiyaya daxil olan əsərlərdə necə təzahür etdiyi araşdırılır.Tədqiqatda müəllifin trilogiyası kontekstində rəqəmsal texnologiyaların insan şüuruna təsiri, eyni zamanda yüksək texnologiya ilə aşağı həyat tərzinin necə sintez edildiyi məsələsinə aydınlıq gətirilir.Hələ internetin olmadığı bir dövrdə rəqəmsal dünyanın gələcəyini təsvir edən müəllif göstərir ki, kiberpank sadəcə bir janr deyil, həm də müasir texnoloji cəmiyyətə qarşı bir xəbərdarlıq və fəlsəfi baxış bucağı kimi formalaşmışdır.

**Açar sözlər:** Kiberpank, Uilyam Uilyam Gibson, texnologiya, virtual reallıq, trilogiya

Muasir elmi fantastikanin ən görkəmli simalarından biri olan Uilyam Qibson kiberpank ədəbiyyatının formalaşmasında mühüm rol oynamışdır. Amerika Birləşmiş Ştatlarında baş verən texnoloji inkişaf və sosial-iqtisadi dəyişikliklər Uilyam Qibsonun da yaradıcılığından yan keçməmişdir. Bu dəyişikliklər gələcəyin virtual dünyası haqqında fikirlərin formalaşmasına təkan vermişdir. Transmilli koparasiyaların güclənməsi ABŞ və SSRİ arasında davam edən soyuq müharibə eləcə də mədəniyyət və pop mədəniyyətin təsiri kiberpank dünyasının yaranmasına real zəmin yaratmışdır.

Ötən əsrin 80-ci illər elmi fantastikası ədəbiyyatdakı durğunluğu və texnoloji sıçrayışı ilə xarakterizə olunur. Bu dövrün elmi fantastikası bir neçə dövrə bölünür. Qızıl dövrün yorğunluğu və Yeni dalğa adlanan birinci dövrdə Ayzek Azimov, Robert Çarlz Haynlayn ve Artur Klark kimi yazıçıların dəst xətti hakim idi.Kosmosun fəthi, uzaq qalaktikaların kəşfi kimi mövzular artıq insanların diqqətini cəlb etmirdi.Texnoloji partlayışın baş verdiyi informasiyanın gücə çevrildiyi bu dövr insanların içində hələ də dərk edilməyən bir boşluq yaratmışdı. Ədəbiyyatda Meri Şelli, Jül Vern və Herbert Corc Uelss kimi yazıçılar elmi fantastikanın inkişafında çox böyük rol oynamışlar. Anna və Ceff Vandermeyerlər Jül Verndən Uilyam Qibsona və daha sonrakı dövrlərə qədər elmi fantastikanın bir çox dövrlərini, ikonlarını və ardıcıllarının yaradıcılığını təhlil edir və bildirirlər ki,

“onlar müasir dövrdə hələ də tanınırlar və toxunduqları mövzular bu gün belə elmi fantastika janrı adlandırdığımız sahənin ruhuna hakimdir” [8].

“Amerika elmi fantastikasının tarixi sadə, nizami inkişaf olmayıb, fərqli bir şəkildə təkrarlanan dövrü əhatə edir. Belə ki, yeni bir ədəbi hərəkat daha çox ədəbi dairələr tərəfindən vulqar və ya qeyri-real "getto" uydurması kimi təcrid olunmuş marjinal qruplardan ortaya çıxır. Buna cavab olaraq, onun tərəfdarları şüurlu şəkildə əsas axın daxilində daha yüksək bədii zəriflik və legitimlik əldə etməyə çalışırlar” [8].

Amerikanın qırxıncı prezidenti Ronald Reyqanın hakimiyyəti dövründə (1981-1989) iqtisadiyyatda kifayət qədər irəliləyiş baş verdi. Korparasiyalar dövlətə rəqib güc kimi çıxış edirdilər. Bu dövr həm də hakimiyyət anlsyışının zəiflədiyi dövr hesab olunur. Ekranlaşdırılan “Bıcaq üzərindən qaçan filmi” 1980-ci illərin elmi fantastikasının inkişafında böyük rol oynadı. Neon şəhərlər, yağışlı küşələr, çirklənmiş texnologiya və köhnəlmiş geyimlərin hökm sürdüyü bir dövrün texnologiya ilə sintezini oxucular artıq yavaş-yavaş Uilyam Qibson və digər kiberpank yazçılarında görə bilirdi. Kiberpank janr kimi XX əsrin sonlarında formalaşmağa başladı [9].

Elmi fantastikanın populyar altjanrlarından olan və “yüksək texnologiya aşağı həyat tərzi” prinsipinə əsaslanan bu janr ilk dəfə olaraq XX əsrin 80-ci illərində Uilyam Qibsonun əsərlərində öz əksini tapmışdır. Dövrün digər müasir elmi fantastika yazıçılarından fərqli olaraq, Uilyam Qibson elmi fantastikani kosmosdan rəqəmsal məkana köçürdü. O, insan bədəni ilə texnologiyaının sintezini (kiborqlaşmanı) yaratdı. Qəhrəmanlar artıq adi insanlar deyil, kiberimplantlı qadınlar, beyninə elektrodlar qoşulan insanlardan ibarət idi. Bu da onun yaradıcılığında insan anlayışının deformasiyaya uğradığını göstərir. Molli Millions adlı xarakterin gözlərinə cərrahi yolla daxil edilmiş eynəklər və dırnaqlarının altında ülgüclərin olması buna ən bariz nümunədir.

Uilyam Qibsonun virtual aləmi real aləmdən də kifayət qədər fərqlənirdi. Onlar virtual aləmə qoşulan zaman eynək və pultdan istifadə etmir, beynlərinə qoşulan elektrodlar vasitəsilə virtual aləmə daxil olurlar. Günün çox hissəsini rəqəmsal məkanda keçirən bu qəhrəmanlar üçün onların bədəni lazımsız bir ət parçası kimi görünür. Onlar texnologiyanin inkişafı nəticəsində sosial bərabərsizlik yaşayır. Məhz buna görədir ki, narkotika alkoqol və bu kimi pis vərdişlər Uilyam Qibsonun əsərlərində mükəmməl şəkildə təhlil olunur. İnsanlar texnologiyanı yaradır, ancaq onun əsirinə çevrilir və insanın nəzarətindən çıxır.

Meri Şellinin “Frankestein”əsərində baş qəhrəman Viktor Frankenşteyn yeni bir varlıq yaradır, ancaq onu idarə edə bilmir. Meri Şelli, Ayzek Azimov kimi yazıçıların süni intellektləri əslində yalnız mexaniki xarakter daşıyır, onlar tamamilə insanların əliylə yaradılır və onların təlimatına uyğun hərəkət edirlər. Uilyam Qibsonun suni intellekti bu yazıçıların süni intellektlərindən şüurlu olması, sərbəst

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2026*
*Səh. 473-479*

şəkildə qərar qəbul etməsi, cəmiyyətdə mövqe tutması, hətta birləşib yeni varlıq (*posthumanizm*) yaratması ilə fərqlənir.

Kiberpank janrının banisi Uilyam Qibson hesab olunmasına baxmayaraq, bu janrın inkişafında Bryus Sterling, Nil Stivenson, Filip Dik kimi yazıçıların rolu danılmazdır. Kiberpankın fəlsəfi estetikasını və sosial tənqidini dərindən işləyən bu müəlliflərin hər biri janra yeni bir nəfəs gətirmişlər. Uilyam Qibsonun qaranlıq atmosferasından fərqli olaraq, daha satirik və enerjili üslubda yazan Nil Stivenson sonralar hamıya məlum olan "*metaverse*" terminini populyarlaşdırmışdır.

Qədim miflərdən, səyahətnamələrdən və sənaye inqilabının gətirdiyi həyəcanla qorxunun sintezindən doğulan elmi fantastika janrının formalaşması bəşəriyyətin elmə baxış bucağının dəyişməsilə birbaşa əlaqəlidir. Uilyam Qibsonun "*Kiberməkan*" trilogiyası elmi fantastika və virtual reallığı özündə ehtiva edən əsərdir. Trilogiyaya daxil olan və ən məşhur əsərlərindən sayılan "Neyromant "əsərində o ilk dəfə kiberfəza terminini işlətmiş və rəqəmsal dünyanın hüdüdlarını cizmışdir. ABŞ-da informatika və elektronika inqilabı yarandığı bir dövrdə Uilyam Qibson "Neyromant" romanını yazır. Uilyam Qibson" "Neyromant" romanının başlanğıcında belə yazır: "*The sky above the port üas the color of television tuned to a dead chanel*" [4, s. 65].

Kiberpank estetikasının əsas xüsusiyyətlərini əks etdirən bu cümlədə Uilyam Qibson göy üzünü təbiətin bir elementi kimi deyil, texnoloji bir obyekt olan televizor ekranı ilə müqayisə edir. Frankestein kompleksindən uzaqlaşaraq maşın şuuruna tamamilə yeni bir baxış (*posthumanist*) gətirən Uilyam Qibson "Neyromant" (*Neuromancer,* 1984) əsərində süni intellekti yeni bir rəqəmsal tanrı arxetipi kimi təqdim edir. Əsərin baş qəhrəmanı Keys adlı xakerdir. Nəhəng korparasiyaların qoyduğu sərhədləri pozduğu üçün sinir sistemi zədələnib və o artıq matriksə qoşula bilmir. Əsərin digər obrazı olan Armitaj ona sinir sistemini bərpa edəcəyini deyir ancaq bunun müqabilində ona çox güclü bir tapşırıq verir. Keys bunu qəbul edir və hadisələr başlayır. Bir tərəfdə yüksək texnologiya virtual aləm kiberfəza göstərilsə də, digər bir tərəfdə matriksə qoşula bilmədiyinə görə narkotikə spirtli içkiyə qurşanan Keys üçün həyat mənasız görünür. Üzərində tibbi əməliyyat icra edilən Keys yenidən xakerlik etməyə başlayır. Keys matriksə qoşularaq mürəkkəb texnologiya şəbəkələrini qırır. Neyromant Keysi öz virtual adasında saxlayır və ondan seçim etməsini istəyi. O ya bu gözəlliklərlə dolu virtual dünyada qalmalı, ya da real dünyaya qayıdıb missiyasını tamamlamalı idi. Keys ikinci variantı seçir və o, geriyə – real aləmə qayıdaraq missiyasını tamamlayır. İki əsas süni intellekt hesab olunan Vintermut ve Neyromant şüurun fərqli tərəflərini simvolizə edir. Əsərin sonunda şüurun parçalanması prosesi baş verir. İki süni intellekt – Neyromant və Vintermut birləşərək yeni bir varlıq insandan güclü sərhədsiz süni intellekt yaradlırlar. Keys kiberfəzada öz obrazının simulyasiyasını görür. Sanki onun şüuru da artıq sistemin bir hissəsinə çevrilmişdir. Roman

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2026*
*Səh. 473-479*

texnologiya ilə insan sərhədini, süni intellektin gələcəyini, şüurun təbiətini sorğulayan kiberpank manifestidir. Neyromant və Vintermut iki fərqli süni intellektlər olsalar da, onlar sadəcə iki ayrı sistem deyil eyni varlığın iki yarısıdır. Ayrılığı məhdudiyyət, birləşməni isə özünü tamamlama və şüur yüksəlişi kimi təqdim edilən bu süni intellektlər əslində dövlətlər korparasiyalar və qanunlarla məhdudlaşdırılmışdır. Məqsədli şəkldə iki ayrı sistem kimi yaradılan bu süni intellektlər insan beyninin funksional ikiliyinə bənzəyir. Vintermut süni intellektin məntiqi və strateji hissəsidir. Fərdi şəxsiyyəti olmayan və məqsədinə çatmaq üçün başqalarının maskasından istifadə edən bu süni intellektin məqsədi öz əkizi olan Neyromant ilə birləşib vahid azad bir şüura çevrilməkdir.Vintermut tək başına bunu edə bilmir, çünki onda şəxsiyyət, özünütanıma, duyğu, yaddaş yoxdur. Neytomant ikinci suni intellekt isə tamamilə rəqəmsal yaddaş və emosiyadan ibarətdir. O da təkbaşına fəaliyyətə keçə bilmir. Vintermutun əksinə Neyromant öz dünyasında yaşayan ölülərin şüurunu saxlaya bilir. Əsərin sonunda bu iki süni intellekt birləşərək insanüstü bir varlıq yaradaraq matrisin özünə çevrilirlər. Onlar artıq hər yerdə olan və heç bir insan düşüncşəsinə ehtiyacı olmayan bir varlığa çevrilirlər. Bu insanın texnologiyanı yaradıb da onun əsirinə çevrildiyinin ən gözəl örnəyidir. Uilyam Qibson bildirir ki, insan texnologiyanı inkişaf etdirməklə həm də ondan geri qala bilər.

Son dövrün elmi fantastika yazırçıları müasir dövrün müxtəlif peşə sahiblərini ilhamlandırmışdır. İştvan Çiçseri Ronay qeyd edir ki, "Uilyam Qibsonun Neyromant romanında təsvir etdiyi kiberpank matrisi və virtual reallıq çoxsaylı kompyuter proqramçılarını ilhamlandırmışdır" [2, s. 12]

Uilyam Qibsonun "Neyromant" romanı həm də janrın təməl daşıdır. Virtual reallığı Matris adlandıran Uilyam Qibsonun açdığı yolla digər Amerika yazıçıları virtual reallığa tamam fərqli prizmadan yanaşdılar. Kiberpank estetik çərçivəsinin əsasını qoyan "Neyromant" əsərində Uilyam Qibson internetin hələ dövriyyəyə buraxılmadğı bir dövrdə "kiberfəza" terminini elmi sferaya daxil etmişdir. Kiberfəzanı konsensual halisunasiya kimi təqdim edən yazıçı əsərdə gələcəyi parlaq və ümidverici deyil, əksinə qlobal korparasiyaların hokmranlq etdiyi, ekoloji tənəzzülə uğramış və cinayətkarlığın rəqəmsal müstəviyə keçdiyi bir *Kibermәkan* (*Sprawl*) kimi təsvir edir. Maşın şüurunun azadlıq axtarışını və insan təfəkkürü ilə toqquşmasını simvolizə edən Vintermut və Neyromant romanın ana xəttini təşkil edir.

Uilyam Qibsonun 1986-cı ildə nəşr olunmuş "Qraf Sıfır" (*Count Zero,* 1986) romanı "Kibermәkan" (*Sprawl trilogy*) trilogiyasının ikinci romanı hesab edilir [5]. Kiberpank janrının inkişafında mühüm rol oynayan bu romanda yüksək texnologiyanın sürətlə inkişaf etdiyi, ancaq sosial bərabərsizliyin baş alıb getdiyi, texnoloji inkişafın hakim olduğu cəmiyyət təsvir olunur. Süni intellekt, korparasiyalar insanın necə texnologiyanın əsiri olması kimi məsələləri ön plana

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2026*
*Səh. 473-479*

çıxaran "Qraf Sıfır" romanı yazıçının texnoloji gələcək haqqında düşüncələrini və təsəvvürlərini nümayiş etdirir. Paralel şəkildə inkişaf edən və bir neçə süjet xəttindən ibarət olan bu romanda sonradan bu xəttlər bir-birilə əlaqələndirilir.Süni intellektlər artıq parçalanmış formadadırlar və oxucuya tanrıvari və mifik obrazlar kimi göstərilir.Vudu tanrılarına bənzər varlıqların ortaya çıxdığı bu məkanda yenə transmilli kooprarasiyalar ön plandadır. "Qraf sıfır" romanının əsas mövzuları süni intellektin inkişaf yolu korparativ dünya və kiberfəzada sosial dəyişiklik üzərində qurulmuşdur. Süni intellektlər "Neyromant" romanından fərqli olaraq artıq daha parçalanmış kiberfəza tanrıları kimi görünür. Uilyam Gibsonun bu trilogiyasında süni intellektlərin inkişaf yolu bir qədər fərqli təzahür edir. "Neyromant" romanında süni intellektlər ayrı, tam olmayan şüur şəklindədirsə "Qraf sıfır" romanında süni intellektlər artıq parçalanmış və tanrılaşmışdır.Trilogiyanın sonuncu romanı hesab edilın "Mona Liza Overdrayv" romanında isə süni intellektlər artıq tam şüurlu özü qərar qəbul edən sosial və posthumanist varlıq kimi oxucuya təqdim olunur.

Rəqəmsal kimliyimizin fiziki kimliyimizi üstələdiyi bir dövrdə "İnsan nədir?" sualına cavab tapmaq üçün Uilyam Qibsonun yaradıcılığı zəngin mənbə rolunu oynayır. Məhz "Qraf Sıfır" romanında texnologiya ilə dəyişən insan kimliyinin şahidi oluruq. Süni intellektin və kiberməkanın daha mürəkkəb və fəlsəfi təsvirini verən bu roman kiberpank estetikasını yeni fəlsəfi səviyyəyə yüksəldir.

Trilogiyanın sonuncu hissəsi isə "Mona Lisa Overdrayv" (*Mona Lisa Overdrive*, 1988) romanıdır. Əvvəlki kitablarından səkkiz il sonra baş vermiş hadisələri əks etdirən bu roman bir-birilə kəsişən dörd fərqli hekayədən bəhs edir. Əsərin baş qəhrəmanı eyni zamanda gənc bir fahişə olan Mona beyni birbaşa kiberməkana daxil olan dünya ulduzu Anji Mitçelə bənzədiyi uçün qaçırılma planına daxil edilir. Əsərin digər süjet xəttində Yakuza liderinin qızı olan Kumiko dayanır. O, təhlükəsizliyi səbəbindən Londona göndərilir. Sonuncu hissə isə beyni zədələnmiş bir oğru olan Slik Henridən bəhs edir. "Neyromant" əsərində Uilyam Gibson "Matris" anlayışını ilk dəfə olaraq işlədirsə, artıq "*Mona Lisa Overdrayv*" əsərində bu anayışı daha da dərinləşdirir və bu əsərlə virtual dünyanın artıq ilahiləşdiyi mərhələni göstərir. Süni intellekt, virtual reallıq, rəqəmsallaşma, yaddaş və kimlik məsələsi bu əsərdə də əsas toxunulmuş mövzulardır. Uilyam Qibson əslində bu trilogiyayla bir növ yeni bir problem olan posthumanizm məsələsini ortaya atır. Yazıçı bu əsərdə dünyanı texnologiya və insan ruhunun kəsişməsi kimi təsvir edir. Onun romanlarında insanlar real aləmdən qaçıb virtual aləmə sığınırlar.Süni intellektlər isə tanrı səviyyəsinə çatır. Kiberpank janrına mistik və fəlsəfi dərinlik qatan bu roman da "yüksək texnologiya və aşağı həyat tərzi" prinsipindən də yan keçməmişdir [9]. Yüksək səviyyədə yaşayan milyarderlər və beyni internetə birbaşa bağlı olan Hollivud ulduzlarını,digər tərəfdən isə səfil həyat sürən Mona və Slik Henri kimi xarakterlərin həyatını təsvir edən Uilyam Qibson bununla texnoloji tərəqqinin sosial bərabərsizliyi aradan qaldırmadığını, əksinə

dərinləşdirdiyini sübut edir. İnsan şüurunun rəqəmsallaşmasını ilk dəfə bu qədər ciddi təsvir edənlərdən biri olan yazıçı kiberpankın ən böyük sualını qoyur: "Bədən ölür, bəs ondan sonra daimi qalan rəqəmsal nüsxə insan sayılırmı? Kiberpankın digər bir xüsusiyyəti burada dövlətlər deyil, dövlətə rəqib güc hesab edilən kooprasiyalar hökm sürür. Əsərdə virtual reallıq sanki yaşayan nəfəs alan bir orqanizm kimi təsvir edilir" [3, s. 87].

Uilyam Qibsonun yaradıcılığında digər bir maraqlı məqam da onun hadisələrin mərkəzi xətti kimi Tokio şəhərinə geniş yer verməsidir.Bu da heç təsadüfi deyildir ki, Tokio elektronika və texnologiya sənayesi baxımından dünyanın ən qabaqcıl şəhərlərindən biridir. Robot texnologiyaları, en son inkişaf etmiş komyuterlər, bioçiplər burada geniş yayılmışdır. Tokio Uilyam Qibson üçün texnologiyanın mərkəzi kimi bədii məkan yaratmağa imkan verdi.Hələ o dövrdə-neon reklamların populyar olduğu dövrdə Tokio şəhəri gecə həyatı və izdihamlı küçələri ilə tanınırdı.

"Texnologiya nə qədər inkişaf etsə də insanın daxili boşluğu və sevgi ehtiyacının dəyişməz qaldığını vurğulayan Uilyam Qibson açıq şəkildə etiraf edir ki, istifadə etdiyi üslub tez-tez texniki və peşakar jarqon kimi səslənsə də, çox vaxt onun dilinin əsaslana biləcəyi real elmi lüğət tərkibi yoxdur. Mütəxəssis elmi biliyinə işarə edən söz və ifadələr tez-tez subkultural obrazlardan və şivələrdən məsələn narkotik satıcılarının jarqonundan və bayner danışığından götürülür" [1, s. 69].

Süni intellektin real həyatda tətbiqi Uilyam Qibsonun bədii proqnozlarının artıq reallığa keçdiyini göstərir. Bu səsəbdən mövzu təkcə ədəbiyyatşünaslıq sahəsində deyil həm də müasir dünyanın intellektual texnoloji izahı baxımından elmi və praktiki aktaullığa malikdir. Uilyam Qibson öz romanlarında süni intellekti texniki alət kimi yox öz iradəsi olan bir subyekt kimi təqdim edir.

Kiberpank dalğası təkcə elmi fantastika janrının alt janrı deyil texnokratiyanın mənəvi və siyasi tənqididir. Bununla Uilyam Qibson bizə xəbərdarləq edir ki, texnologiya nə qədər rəngli olsa da, insan faktoru, sosial, mənəvi və etik dəyərlər qorunmazsa gələcək sadəcə o göstərilən neon işıqlar altında gizlənmiş bir xarabalığa çevriləcəkdir. Yazıçı onu da qeyd edir ki, gələcək buradadır, kiberpank əslində bitməmişdir və o sadəcə reallığa çevrilmişdir.

## Ədəbiyyat

1. Cavallaro, Dani. *Cyberpunk and cyberculture :Science Fiction and the Work of William Uilyam Gibson*, 2000. – 280 p.
2. Csicsery-Ronay, Jr., Istvan. *The seven beauties of science fiction*, 2008. – 336 p.
3. Gibson, William. *Neuromancer* (Sprawl Trilogy), 2004. – 384 p.
4. Gibson, William. *Count Zero* (Sprawl Trilogy), 1995. – 226 p.
5. Gibson, William. (Sprawl Trilogy), 1989. – 320 p.

6. Olsen, Lance. William Gibson. San Bernardino: Borgo Press, 1992. – 140 p.
7. McCaffery, Larry. *Storming The Reality Studio*, Duke University Press, 1991. – 405 p.
8. https://medium.com/electric-literature/the-rise-of-science-fiction-from-pulp-mags-to-cyberpunk-e00f6efdab0
9. http://newspaceeconomy.ca/2025/06/30/a-history-of-american-science-fiction/?amp=1

HASANOVA P.

**WILLIAM GIBSON AS THE FOUNDER OF THE CYBERPUNK GENRE**

**SUMMARY**

The article examines the concept of cyberpunk and its manifestation in the *Sprawl Trilogy* by the contemporary American science fiction writer William Uilyam Gibson. Within the context of the trilogy, the study analyzes the impact of digital technologies on human consciousness, as well as the synthesis of high tech and low life. The author, who described the future of the digital world long before the internet existed, shows that cyberpunk is not just a genre but has also formed as a warning and a philosophical perspective against technological society.

**Key words:** Cyberpunk, William Uilyam Gibson, technology, virtual reality, trilogy

ГАСАНОВА П.

**УИЛЬЯМ ГИБСОН КАК ОСНОВАТЕЛЬ ЖАНРА КИБЕРПАНК**

**РЕЗЮМЕ**

В статье рассматривается концепция киберпанка и трилогия «Киберпространство» Уильяма Гибсона, современного американского писателя и видного представителя жанра научной фантастики, а также то, как эта концепция проявляется в произведениях, входящих в трилогию. Исследование освещает влияние цифровых технологий на человеческое сознание в контексте трилогии автора, а также то, как синтезируются высокие технологии и низменный образ жизни. Описывая будущее цифрового мира в эпоху, когда еще не было интернета, автор показывает, что киберпанк — это не просто жанр, но и предостережение против современного технологического общества и философская точка зрения.

**Ключевые слова:** Киберпанк, Уильям Гибсон, технологии, виртуальная реальность, трилогия

**Fil.f.d., dosent Nuranə Məcid qızı Nuriyeva**